**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№386/3** **11 mart 2026-cı il**

**Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin yekunu üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabata dair**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 1.2-ci "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə, Palatanın Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsi (V.Cavadov) tərəfindən 2025-ci ilin yekunu üzrə hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin yekunu üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabat nəzərə alınsın (əlavə olunur).

2. 2025-ci il ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcminin aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2024-cü il ilə müqayisədə 50%-dən çox olması qənaətbəxş hal kimi qiymətləndirilsin:

Auditor təşkilatları

- "AKK-NET AUDİT" MMC (direktor: Eyvazov Aqil Aftandil oğlu)
- "Analitik - Audit Konsaltinq" MMC (direktor: Qurbanov Abbasəli Şükür oğlu)
- "AZƏRUÇOT" MMC (direktor: Təhməzov Eldar Azay oğlu)
- "AZFAİR AUDİT COMPANY" MMC (direktor: Abdullayev Rəhman Sələddin oğlu)
- "AZFİNANCE AND CONSULTİNG" MMC (direktor: Kazımov Elnur Şahin oğlu)
- "BEYNƏLXALQ AUDİT MƏRKƏZİ" MMC (direktor: Nəcəfov Cavid Nofəl oğlu)
- "EVM AUDİT and CONSALTİNG" MMC (direktor: Bağırov Zamin Əli oğlu)
- "From A to Z Services" MMC (direktor: Əliyev Zahid Vahid oğlu)
- "GARANT AUDİT" MMC (direktor: Abdiyev Qəzənfər Qəməd oğlu)
- "Global and Legal Audit" MMC (direktor: Qarayev Rüfət Niyazi oğlu)
- "İAS" MMC (direktor: Əhmədov Aqşin Qalib oğlu)
- "NET FINANCE" MMC (direktor: Əsgərov Aqşin Nəbi oğlu)
- "REAL REPORT" MMC (direktor: Abdullayev Orxan Vahid oğlu)
- "RF TAX CONSULTING 2015" MMC (direktor: Avşar Faiq Alməmməd oğlu)
- "ABB AUDIT AND FINANCE"MMC (direktor: Bağırov Balağa Əlimuxtar oğlu)
- "Accountal Finans Biznes Konsaltinq" MMC (direktor: Əliyev Ürfət Ramiz oğlu)
- "Audit Expert TV" MMC (direktor: Talıbov Vidadi Musa oğlu)
- "Audit Reporting" MMC (direktor: Məmmədova Yeganə Qubad qızı)
- "AUDİT.AZ" MMC (direktor: İslamov Adil Nüsrət oğlu)
- "Consulting Group" MMC (direktor: Əkbərov Elçin Ehtibar oğlu)
- "Davud Mamedov" MMC (direktor: Məmmədov Davud Zahid oğlu)
- "FİNEXPERT" MMC (direktor: Əşrəfov Elməddin Əşrəf oğlu)
- "Flex Audit" MMC (direktor: Kərimli Rəhman Rizvan oğlu)
- "GÜVƏN AUDİT" MMC (direktor: Mustafayev Vüqar Vəli oğlu)
- "HESABAT" MMC (direktor: Məmmədov Rüfət Azad oğlu)
- "KONSBÜRO AUDİT" MMC (direktor: Seyfulla Nail Mirzəhüseyn oğlu)
- "NEXT AUDİT – KONSALTİNQ" MMC (direktor: Həsənov Bəhlul Qara oğlu)
- "ORİON CONSULTİNG" MMC (direktor: Qəniyev Çingiz Rasim oğlu)

- “PROUD AUDİT” MMC (direktor: Vəliyeva Firuzə Qiyas qızı)
- “PROVICE” MMC (direktor: Orucov Nurlan Ziyəddin oğlu)
- “Q.R.T. Audit” MMC (direktor: Qənizadə Cəmilə Ramiz qızı)
- “Qarant Mühasibat-Audit-Konsaltinq” MMC (direktor: Əlizadə Rahim Ələkbər oğlu)
- “RENESSANS SOLUTİON” MMC (direktor: Məhərrəmov Elçin Məhərrəm oğlu)
- “SAMADOV HÜQUQ VƏ AUDİT” MMC (direktor: Səmədov Ruzi Emin oğlu)
- “TİGS AZERBAİJAN TİMP” MMC (direktor: Məhərrəmov Orxan Akif oğlu)
- “VXA - Audit” MMC (direktor: Qurbanov Elçin İbad oğlu)
- “YOUR INTERNATIONAL CONSULTING AND AUDIT” MMC (direktor: Nəcəfova Vüsalə Ələmdar qızı)

Sərbəst auditorlar
- Ağayev Akif Ağa oğlu
- Allahverdiyev Rəşad Camal oğlu
- Əlizadə Nail Ələkbər oğlu
- Əliyev Natiq Firuddin oğlu
- Gülməmmədov Şirxan Yadigar oğlu
- İsmayılzadə İslam Şamil oğlu
- Məmmədli Nicat Əmrah oğlu
- Rzayeva Kəmalə Elşad qızı
- Rüstəmova Cövriyyə Hacırza qızı
- Tağıyev Vasif İbrahim oğlu
- Xıdırbəyli Cavid Xəlil oğlu
- Zəkiyev Zəki Etibar oğlu

3. 2025-ci il ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcminin aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2024-cü il ilə müqayisədə 50%-dan az olması qeyri qənaətbəxş hal kimi qiymətləndirilsin:

Auditor təşkilatları
- “ARQUMENT AUDİT” MMC (direktor: Əliyev Sadiq Zabit oğlu)
- “ALIS GROUP" MMC (direktor: Ələkbərova Kifayyət Müştəba qızı)
- "GENERAL AUDİT CO" MMC (direktor: Mirzəyevə Qızqayıt Baloğlan qızı)
- “Grovv Audit and Consulting” MMC (direktor: Abdurahmanov Orxan Əlisəfa oğlu)
- “T.A.T GLOBAL AUDIT” MMC (direktor: Talıbov Aslan Tarıyel oğlu)
- “Vaqifoğlu audit” MMC (direktor: Quliyev Elçin Vaqif oğlu)

Sərbəst auditorlar
- Axundov Samir Ağarza oğlu
- Əliyev Yaqub Tofiq oğlu
- Həsənov Samir Əlisoltan oğlu
- Hüseynzadə Dəyanət Telman oğlu
- İsmayılov Səxavət İsmayıl oğlu
- Rzayev Akif Məlik oğlu
- Quliyev Rüfət Hüseyn oğlu

4. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki:

4.1. 2025-ci ilin yekunu üzrə məcburi auditdən keçmə səviyyəsinin 100%-dən aşağı olduğu təsərrüfat subyektləri, o cümlədən məhdud məsuliyyətli cəmiyyətlər (74,6%), bələdiyyələr (76,3%) və siyasi partiyalar (80,8%) barədə təsnifləşdirilmə aparılsın və on gün müddətində aidiyyəti qurumlara və müəssisələrə məlumatların göndərilməsi təmin edilsin;

4.2. 2025-ci ildə bağlanmış, lakin yerinə yetirilməmiş müqavilələrin təhlili aparılaraq nəticələri barədə 2 ay müddətində arayış təqdim edilsin;

4.3. tender və kotirovkalarda iştirak edən auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin Auditorlar Palatası tərəfindən təsdiq edilmiş auditor xidmətlərinin dəyərinin minimum hədlərinə uyğunlaşdırılmasının 2026-cı il ərzində tətbiq edilməsi təmin olunsun;

5. Minimum hədd tələbinin pozulması hallarının qarşısının sistemli şəkildə alınması məqsədilə davamlı olaraq minimum hədlərdən aşağı məbləğə müqavilə bağlayan Palata üzvlərinin hesablarının sistem administratoru tərəfindən Palata rəhbərliyinin müvafiq göstərişi əsasında bloklanması və yalnız Palatanın Şurası yanında Etika, mübahisələr və intizam komissiyasının qərarı olmaqla Palata rəhbərliyinin göstərişinə uyğun olaraq aktivləşdirilməsi mexanizmi tətbiq edilsin.

6. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

6.1. sifarişçilərə göstərilən auditor xidmətlərinin Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələbləri nəzərə alınmaqla yüksək səviyyədə və keyfiyyətlə aparılmasını təmin etsinlər;

6.2. audit subyektləri tərəfindən həyata keçirilən satınalma prosedurlarında şəffaflığın artırılmasını təmin etsinlər;

6.3. Auditorlar Palatasının üzvlərinin maarifləndirilməsi məqsədilə təşkil olunan ustad dərsləri və seminarlarda əməkdaşlarının iştirakını təmin etsinlər;

6.4. Auditorlar Palatası Şurasının 2022-ci il 3 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”inə riayət etsinlər və qiymət dempinqinə yol verməsinlər.

7. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov), həmin idarənin Dövlət orqanları ilə iş şöbəsinə (E.Qəmbərov) tapşırılsın ki, auditor təşkilatları və sərbəst auditorlar tərəfindən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər üzrə bağlanmış müqavilələrin “Auditorun şəxsi kabineti” sistemində vaxtında və tam qeydə alınması təmin edilsin.

8. Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsinə (R.Cəfərli) tapşırılsın ki, Palatanın Şurası yanında Etika, mübahisələr və intizam komissiyası (O.Məhərrəmov) ilə birlikdə auditorlar tərəfindən etik pozuntu və mübahisə hallarına yol verilməsinin aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi təmin edilsin.

9. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**